Ədəbiyyat qəzeti. - 2024.- 17 avqust, №31.- S.32.

# İmam CƏMİLLİ-70



Yazıçı, şair İmam Cəmillini 70 illik yubileyi münasibətilə təbrik edirik.

İmam Cəmilli (İmamverdi Səməd oğlu Verdiyev) 25 avqust 1954-cü ildə Kəlbəcər rayonunun Cəmilli kəndində dünyaya göz açıb. 1968-1978-ci illərdə Cəmilli kəndində 4-cü sinifi, qonşu Seyidlər kəndində isə tam orta məktəbi bitirib. 1978-1980-ci illərdə Əfqanıstanda hərbi xidmətdə olub. 1981-ci ildə Gəncə Dövlət Texnologiya İnstitutuna daxil olub, həmin universitetin texnologiya mühəndisliyi fakültəsini bitirib, texnoloq, mühəndis ixtisasına yiyələnib. Əmək fəaliyyətinə 15 nömrəli SMD-də iş icraçısı olaraq başlayıb. 1990-cı ildə Qarabağda gedən döyüşlərdə Goranboy-Ağdərə istiqamətində könüllü özünümüdafiə batalyonunda hərbi əməliyyatlarda iştirak edib və yaralanıb, II qrup Qarabağ müharibəsi əlili və Əfqanıstan müharibəsi veteranıdır.

Yaradıcılıq fəaliyyətinə XX əsrin 70-ci illərindən başlamışdır. "Azərbaycan müəllimi", "Sovet kəndi", "Azərbaycan gəncləri" və s. qəzetlərdə müntəzəm olaraq çıxış etmişdir. İmam Cəmilli ədəbi ictimaiyyətin maraqla qarşıladığı 19 kitab müəllifidi. O, Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvüdür. "Qızıl qələm" mükafatçısıdır. Prezidentin birillik xüsusi təqaüdünə layiq görülmüşdür. "Dövlət naminə" qəzetinin baş redaktorudur. 2004-cü ildən Ümid Partiyası Goranboy rayon şöbəsinin sədridir. Keçən dövr ərzində Ümid Partiyası tərəfindən parlament və bələdiyyə seçkilərində namizəd, prezident seçkiləri və referendumlarda Ümid Partiyasının MSK-da səlahiyyətli nümayəndəsi olub. 1 sentyabr 2024-cü il növbədənkənar parlament seçkilərində Ümid Partiyası tərəfindən 96 saylı Goranboy-Naftalan seçki dairəsindən deputatlığa namizədliyi irəli sürülüb.

Yazıçı, şair İmam Cəmillini 70 illik yubileyi münasibətilə bir daha ürəkdən təbrik edir, uzun ömür və möhkəm cansağlığı arzu edirik.

**Azərbaycan Yazıçılar Birliyi**